# Azərbaycan Respublikasının Nazirlər Kabineti

# Faydalı qazıntılar çıxaran müəssisələrin, dağ-mədən qazmalarının, buruq quyularının və faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan yeraltı qurğuların ləğv və konservasiya edilməsi Qaydalarının təsdiq edilməsi haqqında

# Qərar № 2

***Bakı şəhəri, 9 yanvar 1999-cu il***

«Yerin təki haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 27 aprel tarixli 701 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. «Faydalı qazıntılar çıxaran müəssisələrin, dağ-mədən qazmalarının, buruq quyularının və faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan yeraltı qurğuların ləğv və konservasiya edilməsi Qaydaları» təsdiq edilsin (əlavə olunur).

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Baş naziri***

***A.RASİ-ZADƏ.***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (31 yanvar 1999-ci il, № 1, maddə 43) («VneshExpertService» LLC).***

***22 fevral 2001-ci il tarixli, 38 nömrəli; 7 yanvar 2005-ci il tarixli, 5 nömrəli; 13 sentyabr 2006-cı il tarixli, 207 nömrəli; 13 dekabr 2007-ci il tarixli, 200 nömrəli qərarlara əsasən əlavə və dəyişikliklərlər («VneshExpertService» LLC).***

---

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 9*

*yanvar tarixli 2 nömrəli qərarı ilə* ***təsdiq edilmişdir.***

# Faydalı qazıntılar çıxaran müəssisələrin, dağ-mədən qazmalarının, buruq quyularının və faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan yeraltı qurğuların ləğv və konservasiya edilməsi Qaydaları

## *1. Ümumi müddəalar*

1.1. «Yerin təki haqqında» Azərbaycan Respublikası Qanunu, «Yerin təki haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 27 aprel 1998-ci il tarixli 701 nömrəli Fərmanının icrası ilə əlaqədar geoloji-kəşfiyyat işlərinin aparılması və ya faydalı qazıntı yataqlarının istismarı ilə əlaqədar dağ-mədən qazmaları, axtarış-kəşfiyyat və istismar buruq quyuları, xüsusi razılığın *və ya icazənin* qüvvədə olma müddəti başa çatdıqda, yaxud yerin təkindən istifadə hüququna vaxtından əvvəl xitam verildikdə, eləcə də istismarı hər hansı səbəbdən müvəqqəti dayandırıldıqda faydalı qazıntıların çıxarılması üzrə müəssisələr, dağ-mədən qazmaları, buruq quyuları və faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan yeraltı qurğular ləğv və ya konservasiya edilməlidir.

Bu Qaydalar, Azərbaycan Respublikası ərazisində və Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub bölməsində mülkiyyət formasından asılı olmayaraq faydalı qazıntıların kəşfiyyatı, çıxarılması və faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan yeraltı qurğuların tikilməsi və istismarı ilə məşğul olan bütün yer təki istifadəçiləri üçün məcburidir.

1.2. Faydalı qazıntılar çıxaran müəssisə, tam, yaxud qismən ləğv və ya konservasiya olunduqda dağ-mədən qazmalarının və buruq quyularının əhalinin həyat və sağlamlığının təhlükəsizliyi, ətraf mühitin, binaların və qurğuların mühafizəsi, konservasiya olunduqda isə bunlardan başqa konservasiya müddətində yatağın, dağ-mədən qazmalarının və buruq quyularının əvvəldə olduğu kimi saxlanması təmin olunmalıdır.

1.3. Faydalı qazıntıları çıxaran müəssisə və ya onun bir hissəsi, dağ-mədən qazmaları, buruq quyuları, eləcə də faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan yeraltı qurğular ləğv və ya konservasiya edilərkən geoloji, markşeyder və digər sənədlər işlər dayandırıldığı anadək olan məlumatlarla tamamlanmalı və qanunvericiliklə müəyyən edilmiş qaydada *Fövqəladə Hallar Nazirliyində* saxlanmalıdır.

1.4. Faydalı qazıntılar çıxaran müəssisənin (onun bir hissəsinin), dağ-mədən qazmalarının, buruq quyularının və ya faydalı qazıntıların çıxarılması ilə əlaqədar

olmayan yeraltı qurğuların ləğv və konservasiya edilməsi xüsusi razılıq *və ya icazə* vermiş Azərbaycan Respublikasının *Ekologiya və Təbii Sərvətlər Nazirliyi* və *Fövqəladə Hallar Nazirliyi* tərəfindən ləğv və ya konservasiya aktı imzalandıqdan sonra qüvvəyə minir.

1.5. Faydalı qazıntıların çıxarılması işləri bərpa olunanadək müəssisənin konservasiyada qalma müddətinin davam etməsi yer təki istifadəçisinin qərarı ilə müəyyən edilir. Konservasiyanın müəyyən olunmuş müddəti keçdikdə, onu yalnız aktı imzalayan orqanlar uzada bilərlər.

1.6. Konservasiyada olan müəssisələrin, dağ-mədən işlərinin və buruq quyularının bərpası qəbul olunmuş qaydada təsdiq olunmuş, *Fövqəladə Hallar Nazirliyi* və xüsusi razılıq *və ya icazə* verən orqanla razılaşdırılmış layihə üzrə aparılmalıdır.

## *2. Ləğv və konservasiyaya icazənin alınması*

2.1. Yer təki istifadəçiləri (onların yuxarı təşkilatları varsa — yuxarı təşkilatları) müəssisənin tam, yaxud qismən, dağ-mədən qazmalarının, buruq quyularının, eləcə də faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan yeraltı qurğuların ləğv edilməsi və konservasiya olunması üçün, konservasiyanın zəruri olması haqqında *Fövqəladə Hallar Nazirliyinin* ünvanına ərizə göndərməlidirlər.

Ərizəyə əlavə olunur:

a) yer səthinin və müəssisənin horizontlar planlarının, həmçinin faydalı qazıntı yatağının ehtiyatlarının və kəşfiyyatının, dağ qazmalarının, buruq quyularının, relyefin və yer səthinin vəziyyətini əks etdirən əsas dağ-qrafik sənədlərin surətləri (şaquli və horizontal proyeksiyalar, kəsilişlər);

b) konservasiyanın zəruriliyinin əsaslandırılmasının texniki-iqtisadi hesablamaları və s.;

c) Arayışlar:

- faydalı qazıntıların balans və balansdankənar ehtiyatlarının qalığı haqqında;
- ehtiyatların vəziyyəti göstərilməklə qoruyucu və digər bütövlərdəki faydalı qazıntı ehtiyatları haqqında;
- müvəqqəti istifadə olunmayan faydalı qazıntıların, həmçinin tərkibində faydalı komponentlər olan və tikinti materialları istehsalına, yaxud faydalı komponentlərin sona qədər çıxarılmasına yararlı olan istehsalat tullantılarının olması haqqında;
- istehsalat və sanitar-məişət binaları, qurğular və suaxıdan vəsitələrin vəziyyəti haqqında;
- yeraltı boşluqların olması, dağ-mədən qazmalarının vəziyyəti, yerüstü sürüşmələrin faktiki, maksimal və gözlənilən ölçüləri haqda;

ç) «Yerin təki haqqında» Azərbaycan Respublikası Qanununun tələbləri ödənilməklə ləğv, yaxud konservasiya vaxtı işlərin təhlükəsizliyini, digər müəssisələrə ləğv və konservasiya işlərinin zərərli təsirlərin qarşısının alınmasını, müəssisənin, dağ-mədən qazmalarının, buruq quyularının, maşın və qurğuların saxlanmasını təmin edən tədbirlər planı.

2.2. 2.1 bəndində göstərilən materiallar hazırlandıqdan sonra yer təki istifadəçisinin (yuxarı təşkilatı varsa — yuxarı təşkilatının) ərizəsinə əsasən, *Fövqəladə Hallar Nazirliyi*, faydalı qazıntıların çıxarılmasına xüsusi razılıq *və ya icazə* verən *Ekologiya və Təbii Sərvətlər Nazirliyinin* nümayəndəsinin iştirakı ilə mütəxəssislərdən ibarət xüsusi Komissiya yaradır. Komissiya üzvləri yerlərdə obyektlərə baxdıqdan və müvafiq sənədləri araşdırdıqdan sonra müəssisənin, dağ-mədən qazmalarının, buruq quyularının, faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan yeraltı qurğuların ləğv edilməsi və konservasiyası, yaxud gələcəkdə təsərrüfat və istehsalat obyektlərinin yerləşdirilməsinin mümkünlüyü barədə akt tərtib edir. Həmçinin konservasiya və ləğv işlərinin yerinə yetirilməsi üçün əhalinin təhlükəsizliyini, ətraf təbii mühitin, binaların və qurğuların mühafizəsini və ehtiyatların çıxarılmasının dolğunluğunu, konservasiya vaxtı isə yer təkində qalan faydalı qazıntı ehtiyatlarının mühafizəsini təmin edən tədbirlərin işlənməsinə təkliflər verməlidirlər.

Komissiyanın rəyi 1 nömrəli əlavədə göstərilən forma üzrə tərtib edilir.

Komissiyaya sədrlik *Fövqəladə Hallar Nazirliyi* tərəfindən həyata keçirilir.

Geoloji-kəşfiyyat və istismar işlərinin aparılmasında dərinliyi 10 m-ə qədər olan şaquli, 50 m-ə qədər horizontal dağ-mədən və kəşfiyyat-istismar qazmalarının və dərinliyi 150 m-ə qədər olan kəşfiyyat-istismar quyularının ləğv və konservasiya olunmasına sədrlik yer təki istifadəçilərinin texniki rəhbəri tərəfindən həyata keçirilir.

2.3. Ləğv və konservasiyaya komissiyanın və marağı olan orqanların etirazı olmadıqda yer təki istifadəçiləri və ya ixtisaslaşdırılmış müəssisə tərəfindən ləğv, yaxud konservasiyanın layihəsi tərtib edilir.

2.4. Ləğv, yaxud konservasiyanın layihəsi yer təki istifadəçisi tərəfindən təsdiq olunmazdan əvvəl *Fövqəladə Hallar Nazirliyi* və xüsusi razılıq *və ya icazə* verən orqanlar ilə razılaşdırılmalıdır. Təsərrüfat və istehsalat obyektlərinin yerləşdirilməsi üçün perspektivli olan qazmaların konservasiyası layihələrinə, zərurət yarandıqda Tikinti və Arxitektura Komitəsinin (və ya onun yerli orqanının) ekspert rəyi tələb olunur.

2.5. Ləğv, yaxud konservasiya işləri başa çatdıqdan sonra yer təki istifadəçiləri, yerinə yetirilmiş işləri qəbul etmək üçün Komissiya yaradır. Komissiyaya *Fövqəladə Hallar Nazirliyi* sədrlik etməklə, xüsusi razılıq *və ya icazə* vermiş orqanın da nümayəndəsi daxil edilir.

Ləğv, yaxud konservasiya layihəsində baxılan işlərin dolğunluğunun qiymətləndirilməsinə və yerinə yetirilməsinin keyfiyyətinə bilavasitə baxılması əsasında, həmçinin təqdim olunmuş materialları öyrəndikdən sonra göstərilən işlərin qəbul olunması haqqında 2 nömrəli əlavədə göstərilən formada akt tərtib edilir.

Akt əlavələrlə birlikdə təsdiq olunmaq üçün yer təki istifadəçisinin rəhbərinə verilir. Aktın bir nüsxəsi *Fövqəladə Hallar Nazirliyi* və xüsusi razılıq *və ya icazə* vermiş orqanlara göndərilir.

## 3. Ləğv və konservasiya layihəsinin məzmunu

3.1. Ləğv və konservasiya layihəsi izahedici qeyddən, geoloji və markşeyder sənədləri olmaqla qrafik materiallardan ibarətdir.

İzahedici qeyddə müvafiq hazırlıqlar üzrə ləğv və konservasiya işləri öz əksini əsasən aşağıdakı kimi tapmalıdır:

- qalıq balans ehtiyatlarının və çıxarılması iqtisadi cəhətdən məqsədəuyğun olan balansdankənar ehtiyatların, o cümlədən bütövlərdəki ehtiyatların işlənməsi qrafiki və istismar qaydaları;
- yatağın təkrar işlənməsinin məqsədyönlülüyünü, anbarlara yığılmış kondisiyaya uyğun gəlməyən faydalı qazıntıların və istehsalat tullantılarının təsərrüfatda və istehsalatda istifadə olunması və onların saxlanılması məsələlərinin həllini təmin edən tədbirlər;
- əhalinin təhlükəsizliyini, yer təkinin və ətraf təbii mühitin, bina və qurğuların mühafizəsini, həmçinin su və qaz yarmalarının, yeraltı yanğınların yayılmasının və s. qarşısının alınmasını təmin edən tədbirlər;
- dağ qazmalarından və buruq quyularından gələcəkdə təsərrüfatın və istehsalatın digər məqsədləri üçün istifadə olunması məsələlərinə baxılması;
- müəssisənin, yaxud onun bir hissəsinin ləğv və ya konservasiyasının üsulları;
- Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq yer səthinin və su obyektlərinin gələcəkdə təsərrüfat və istehsalat obyektlərinin yerləşdirilməsində istifadə edilməsi üçün yararlı vəziyyətə gətirilməsi tədbirləri;
- ləğv, yaxud konservasiya işlərinin, onun və onunla yanaşı olan müəssisənin obyektlərinə zərərli təsirinin və xidmət vaxtı işlərin təhlükəsiz görülməsi tədbirləri;
- geoloji və markşeyder sənədləri üzərində bütün məlumatlar öz əksini tapmalıdır.
- 2.1 «c» bəndində qeyd olunmuş arayışlar.

## *4. Ləğv, yaxud konservasiya vaxtı görülən tədbirlər*

4.1. «Yerin təki haqqında» Azərbaycan Respublikası Qanununun tələblərinə müvafiq olaraq müəssisələrin, dağ-mədən qazmalarının, buruq quyularının və faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan yeraltı qurğuların istismarı ilə əlaqədar ləğv, yaxud konservasiya vaxtı işlərin təhlükəsizliyini, müəssisənin obyektlərinə xidmət vaxtı onunla yanaşı olan dağ-mədən və digər müəssisələrə ləğv, yaxud konservasiya işlərinin zərərli təsirinin qarşısının alınması, konservasiya müddətində yatağın, maşınların, avadanlıqların, qurğuların, dağ qazmalarının və s. saxlanması, korlanmış torpaq sahələrinin yararlı vəziyyətə gətirilməsi, qazma ağızlarının bərkidilməsi, öz-özünə alışan faydalı qazıntıların konservasiya müddətində yanğın əleyhinə, həmçinin bu qaydaların tələblərinə müvafiq tərtib olunmuş layihədə görüləcək tədbirlər yerinə yetirilməlidir.

## *5. Ləğv və konservasiyanın uçotu*

5.1. Yer təki istifadəçilərinin balansında olan dağ-mədən qazmalarının, buruq quyularının, həmçinin faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan yeraltı qurğuların ləğv edilməsi və konservasiya uçotu «Yerin təki haqqında» Azərbaycan Respublikası Qanununun və bu Qaydaların tələblərinə müvafiq aparılmalıdır.

5.2. Ləğv və konservasiyanın uçotu layihəni təsdiq edən yer təki istifadəçisi tərəfindən bu Qaydaların 3-cü və 4-cü əlavələrində verilmiş formaya uyğun olaraq aparılmalıdır.

*1 nömrəli əlavə*

# Faydalı qazıntıları çıxaran müəssisələrin, dağ-mədən qazmalarının, buruq quyularının və faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan yeraltı qurğuların ləğv və ya konservasiyasının zəruriliyi haqqında
# Rəy

_______________________________________________________________

*(əmri (qərarı) vermiş yer təki istifadəçilərinin adı)*

«____»________________199____il tarixli ____ nömrəli əmrinə (qərarına) əsasən
«____»________________199____il tarixdə ______________________________________

_______________________________________________________________

*(təşkilat, vəzifəsi, soyadı, adı, atasının adı)*

_______________________________________________________________

Sədrliyi ilə, aşağıdakı tərkibdə Komissiya:

_______________________________________________________________

*(təşkilatlar, vəzifələri, soyadları, adları, ata. adları)*

_______________________________________________________________

*(faydalı qazıntı çıxaran yer təki istifadəçisinin adı və yerləşdiyi yer)*

____________________________________________________ yerində baxış keçirtdi.

Baxılmış sənədlərə və materiallara __________________________________________

_______________________________________________________________

*(sənədlərin və materialların adları)*

_______________________________________________________________

və faydalı qazıntı çıxaran müəssisəyə (və ya onun bir hissəsinə) keçirilmiş baxışa əsasən
Komissiya müəyyən etdi: __________________________________________

_______________________________________________________________

*(faydalı qazıntı çıxaran müəssisələrin, dağ-mədən qazmalarının,*

---

*buruq quyularının və faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan*

---

*yeraltı qurğuların texniki vəziyyəti, yaxud göstərilənlərin*

---

*dağ-texniki və iqtisadi şəraiti haqqında Komissiyanın gəldiyi nəticə)*

---

# Komissiyanın rəyi

---

*(faydalı qazıntı çıxaran müəssisələrin, dağ-mədən qazmalarının, buruq quyularının və*

---

*faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan yeraltı qurğuların ləğv,*

---

*yaxud konservasiyasının məqsədəuyğunluğuna münasibətdə əsaslandırılmış fikirlər,*

---

*onların digər məqsədlər üçün istifadə olunmasının mümkünlüyü və göstərilənlərin ləğv,*

---

*yaxud konservasiyaya hazırlanması üçün tədbirlərin işlənməsi təklifləri,*

---

*həmçinin əhalinin təhlükəsizliyini, ətraf mühitin, binaların və qurğuların mühafizəsinin*

---

*və yer səthində qalan faydalı qazıntı ehtiyatlarının və s.*

---

*qorunmasını təmin edən tədbirlər)*

Əlavə ______ səhifədə.

***Komissiyanın sədri:***

***Komissiyanın üzvləri:*** ***1.***

***2.***

***3.***

***4.***

***5.***

***6.***

---

*2*
*nömrəl*
*i əlavə*

**«Təsdiq edirəm»**

___________________________________

*(yer təki istifadəçisi)*

___________________________________

*(soyadı, adı)*

________________________________ il

# Faydalı qazıntıları çıxaran müəssisələrin, dağ-mədən qazmalarının, buruq quyularının və faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan yeraltı qurğuların ləğv yaxud konservasiyası məqsədilə görülən işlərə verilən qiymət və qəbul Aktı

___________________________________________________________________________

*(komissiyanı təyin edən yer təki istifadəçisinin adı)*

_______________ il tarixli ____ nömrəli əmrilə (qərarı ilə) təyin olunmuş _____

___________________________________________________________________________

*(orqan, vəzifəsi, soyadı, adı, atasının adı)*

sədrliyi və tərkibinə aşağıdakı üzvlərin ___________________________________

____________________________________________________________________________

*(təşkilatlar, vəzifələri, soyadları, adları, ata. adları)*

____________________________________________________________________________

____________________________________________________________________________

daxil olduğu Komissiya _____________________ il tarixdə ləğv və ya konservasiya olunmuş (lazım olmayanın üstündən xətt çəkməli) müəssisəyə, dağ-mədən qazmalarına, buruq quyularına, yaxud faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan yeraltı qurğulara baxış keçirmiş «Yerin təki haqqında» Azərbaycan Respublikası Qanununun və faydalı qazıntı çıxaran müəssisələrin ləğv, yaxud konservasiya olunması qaydalarının tələblərinə, həmçinin göstərilənlərin ləğv, yaxud konservasiyası layihəsinə uyğun olaraq yerinə yetirilmiş işlərin dolğunluğunu və keyfiyyətini xarakterizə edən sənəd və materiallara baxılmalıdır.

Aktda yer təkindən əsas və onlarla birlikdə yatan balans və balansdankənar faydalı qazıntı ehtiyatlarının çıxarılmasının dolğunluğunun, əhalinin təhlükəsizliyini, ətraf təbii mühitin, binaların və qurğuların ləğv, yaxud konservasiya olunmuş müəssisələrin, dağ-mədən qazmalarının, buruq quyularının zərərli təsirindən mühafizə olunmasını və göstərilən işlərin keyfiyyətlə yerinə yetirilməsinə qiymət verilməsini təmin edən ləğv, yaxud konservasiya ilə əlaqədar aparılmış bütün işlər sadalanmalıdır.

Akta, yerinə yetirilən işlərin dolğunluğunu və keyfiyyətini əks etdirən zəruri dağ-qrafik materiallar, sənədlər və arayışlar əlavə olunmalıdır.

Əlavə ______ səhifədə.

***Komissiyanın sədri:***

***Komissiyanın üzvləri:*** **1.**

**2.**

**3.**

**4.**

**5.**

**6.**

---

*3 nömrəli əlavə*

# Faydalı qazıntıları çıxaran müəssisələrin, dağ-mədən qazmalarının, buruq quyularının və

# faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan yeraltı qurğuların ləğvinin Siyahısı

| Sıra nömrəsi | Ləğv olunan müəssisənin (onun bir hissəsinin — dağ-mədən qazmalarının, buruq quyularının və s.) adı, onun idarə tabeçiliyi və yerləşdiyi *ərazi vahidi* | Müəssisənin (onun bir hissəsinin) ləğv olunduğu tarix, yer təki istifadəçisinin əmrinin, qərarının nömrəsi | Müəssisənin (onun bir hissəsinin) ləğv olunmasına əsas səbəblər | Müəssisənin (onun bir hissəsinin) ləğv olunması layihəsini işləyən | Müəssisənin (onun bir hissəsinin) ləğv olunması layihəsini təsdiq edən | Müəssisənin (onun bir hissəsinin) ləğv olunması aktını təsdiq edən | Müəssisənin (onun bir hissəsinin) ləğv olunması sənədlərinin saxlandığı təşkilat | Xüsusi icazənin və «Dağ-mədən ayırması» aktının reyestr nömrəsi və onun verildiyi tarix | Qeyd |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
| | | | | | | | | | |
| | | | | | | | | | |

*4 nömrəl i əlavə*

# Faydalı qazıntıları çıxaran müəssisələrin, dağ-mədən qazmalarının, buruq quyularının və faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan yeraltı qurğuların konservasiyasının Siyahısı

| Sıra nömrəsi | Konservasiya olunan müəssisənin (onun bir hissəsinin — dağ-mədən qazmalarınınvə buruq quyularının və s.) adı, onun idarə tabeçiliyi və yerləşdiyi *ərazi vahidi* | Müəssisənin konservasiya olunduğu tarix, yer təki istifadəçisinin əmrinin (qərarının) nömrəsi | Müəssisənin (onun bir hissəsinin) konservasiya olunmasına əsas səbəblər | Müəssisənin (onun bir hissəsinin) konservasiya olunması layihəsini işləyən | Müəssisənin (onun bir hissəsinin) konservasiya olunması layihəsini təsdiq edən | Müəssisənin (onun bir hissəsinin) konservasiya olunması aktını təsdiq edən | Müəssisənin (onun bir hissəsinin) konservasiya olunması sənədlərinin saxlandığı təşkilat | Xüsusi razılıq *və ya icazə* və «Dağ-mədən ayırması» aktının reyestr nömrəsi və onun verildiyi tarix | Qeyd |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
| | | | | | | | | | |
| | | | | | | | | | |